# Bizdə şeir də var, sənət də vardır...

## Regionların yaradıcılıq festivalında Nəsimi irsi

Bu il martın 28-dən mayın 21-dək Mədəniyyət Nazirliyinin təşəbbüsü, nazirliyin regional idarələrinin iştirakı ilə gerçəkləşən 2-ci "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının yekun tədbiri iyunun 18-də Bakıda, Mərdəkan Mədəniyyət sarayında keçirildi. Tədbirdə mədəniyyət naziri Əbülfəs Qarayev, nazir müavinləri, bir sıra rayonların icra hakimiyyətinin rəhbərləri, regional mədəniyyət idarələrinin rəisləri və mədəniyyət işçiləri iştirak edirdilər.

Qonaqlar əvvəlcə Mədəniyyət sarayının həyətində regional idarələrin çadır-guşələri – xalq sənətkarlıq nümunələrinin, rəssamların əl işlərinin sərgi-yarmarkası ilə tanış oldular. Sərgi regional mədəniyyət idarələrinin əhatə etdiyi şəhər və rayonların sənətkarlıq, mədəni irs və incəsənətini əks etdirirdi.

Mədəniyyət sarayının foyesində isə "Nəsimi ili" və dahi şairin 650 illiyinə həsr olunmuş sərgi qurulmuşdu. Burada İmadəddin Nəsiminin əsərlərinin müxtəlif nəşrləri, onun haqqında kitablar, mütəfəkkir şairin əks olunduğu rəsm əsərləri yer almışdı. Onu da qeyd edək ki, festivalın regional idarələr üzrə şəhər və rayonlarda təşkil olunan bütün tədbirlərində Nəsimi




irsinə, böyük söz ustadının yubileyinə xüsusi yer verilmişdi.

Mərasimdə çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının əhəmiyyətini yüksək qiymətləndirdi. Bildirdi ki, ölkəmizin, o cümlədən bölgələrimizin mədəni irsinə dövlət tərəfindən diqqət və qayğı göstərilir, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı sayəsində bu gün mədəniyyətimiz, mədəni irs nümunələrimiz beynəlxalq aləmdə təbliğ edilir: "Mədəniyyətimizi yaşatmaq və gələcək nəsillərə ötürmək üçün bu sahədə çalışanlar da öz töhfələrini verirlər. "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı da bizim bu missiyaya töhfəmizdir".

Diqqətə çatdırıldı ki, regionlararası mübadilədə mühüm əhəmiyyət kəsb edən festival yerli sakinlərin xüsusi marağına səbəb olub. Yerli icra orqanlarının da dəstəyi ilə reallaşan layihə ölkəmizin regionlarının mədəni zənginliyi və sənətkarlıq irsi ilə tanış olmaq imkanı yaradıb.

Mərasimdə festivalın təşkilində dəstəyinə görə Balakən, Xaçmaz, Ağcabədi, Tərtər və Lerik rayonlarının icra hakimiyyətlərinin başçılarına mükafatlar təqdim edildi. Gəncə, Sumqayıt, Kürdəmir, Ağcabədi, Biləsuvar, Ağdaş regional mədəniyyət idarələrinin rəislərinə, həmçinin informasiya dəstəyinə görə AZƏRTAC və Azərbaycan Televiziyasına nazirliyin fəxri fərmanları verildi. Əbülfəs Qarayev festivalın keçirilməsində əməyi olan hər kəsə öz minnətdarlığını bildirdi, onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı.

Sonra regional mədəniyyət idarələrini təmsil edən və festivalda fərqlənmiş musiqi kollektivləri və incəsənət ustalarının iştirakı ilə konsert proqramı təqdim olundu.

Qeyd edək ki, yaradıcılıq festivalında ümumilikdə 65 şəhər və rayon iştirak edib. Festival martın 28-də Gəncə şəhərində başlanıb, 29 martda Ağstafa, 5 apreldə Ağdaş, 11 apreldə Saatlı, 12 apreldə Neftçala, aprelin 17-də Ağcabədi, aprelin 18-də Tərtər, 25 apreldə Xaçmaz, 26 apreldə Abşeronda (Xırdalan şəhəri) davam edib. Festival tədbirləri 2 may tarixində Lerik, 3 mayda Masallı, 10 mayda Kürdəmir, 11 may tarixində Şəmkir, 16 mayda Şamaxı və 21 mayda Balakən rayonlarında keçirilib. Festival çərçivəsində 80-ə yaxın musiqi kollektivi (folklor, rəqs, musiqi ansamblı və s.), 50-dən çox incəsənət ustası çıxış edib, xalq sənətkarlıq nümunələri, rəssamların əl işlərinin sərgi-yarmarkaları təşkil olunub.